

ELMİ-METODİK MƏRKƏZ

AZƏRBAYCAN KİNOSU TARİXİNDƏN

"MOZALAN" SATİRİK KİNOJURNALININ YARANMASI

FEYRUZ BAĞIROV

ELMİ-METODİK MƏRKƏZ

AZƏRBAYCAN KİNOSU TARİXİNDƏN

“Mozalan” satirik kinojurnalının yaranması

Keçən əsrin altmışıncı illərində Sovetlər birliyi ölkəsində müxtəlif xalqları təmsil edən on beş respublikanın milli-mənəvi mədəniyyəti və incəsənətin əsas sahələrindən biri olan kino sahəsinə də, Moskva hökuməti rəhbərlik edirdi.

Həmin illərdə sosialist quruculuğundakı antipodları tənqid etmək üçün Moskvadakı "Mərkəzi sənədli filmlər studiyası" tərəfindən "Fitil" adlı aylıq kinojurnal ekranlara çıxarılırdı. Bu ənənəni daha geniş təbliğ etmək məqsədilə müttəfiq respublikalarda da, milli-mənəvi satirik kinojurnalların yaranması olmuşdu.

1970-ci ildə Azərbaycan respublikasında C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası nəzdində "Mozalan" satirik kinojurnalı yaradılır. İlk vaxtlarda kinojurnala Eyvaz Borçalı baş redaktorluq etsə də, sonrakı illərdə tanınmış kino aktyoru və rejissor Ceyhun Mrzəyev olmuşdur.

"Mozalan" satirik kinojurnalı tarixi bir yol keçərək 1980 -1987 -ci illərdə Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsinin orqanı kimi fəaliyyət göstərmişdir. Kinojurnal Azərbaycan xalqının sosial və mənəvi həyatında, o cümlədən də xalq təsərrüfatı sahəsində yaranmış və təsdiq olunmuş qüsurları tənqid hədəfinə tutardı. Geniş kinoteatr aidotoriyası və respublika televiziyası ekranlarında nümayiş olunan "Mozalan" satirik kinojurnalı, tez bir zamanda kinosevərlər tərəfindən rəğbətlə qarşılansa da, bir sıra rəhbər işçilər tərəfindən tənqid hədəfinə tutuldu.

Tezliklə Azərbaycan KP Mərkəzi Komitəsi, "Mozalan" satirik kinojurnalının tənqidi çıxışlarına respublikanın bəzi nazirliklərinin yanlış münasibətləri haqqında qərar qəbul edilir. "Mozalan" satirik kinojurnalı öz operativliyi ilə, tənqidi çıxışlara qarşı yeni-yeni mövzular seçməsi və bunları yaxşı formada göstərməsi ilə xalqın etimadını qazanmışdır.

"İdeoloji iş və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında" Moskva hökumətinin qərarı mətbuatın tənqidi çıxışlarına operativ surətdə, işgüzarcasına yanaşmağı, iqtisadi quruculuğun, kommunist tərbiyəsinin mühüm məsələlərini qaldıran materialları prinsip etibarı ilə müzakirə edib və tənqidin boğulması faktlarını üzə çıxarmağı tələb edilirdi.

1971 -79 -cu illərdə rübdə bir dəfə (nömrə) istehsal olunan "Mozalan" satirik kinojurnalı, 1988 -ci ildən isə ildə səkkiz dəfə (nömrə) çəkilib və ekranlara çıxarılır. Beləliklə 1970 -ci ildə bir nömrəsi olan kinojurnal, 1971 -ci ildən 1980 -ci ilədək 36 dəfə (nömrə) və 1980 -ci ildən isə son yeddi il ərzində 64 dəfə (nömrə) istehsal olunmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev mədəniyyətimizi, incəsənətimizi, xüsusi ilə milli kino sənətimizi sevmiş və bu sahəyə xüsusi diqqət və qayğı göstərmişdir. Həmin illərdə H. Əliyev çıxışlarının birində belə söyləmişdir; "Bəşəriyyət qarşısında kinonun xidmətləri böyükdür. Amma bizim xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir. Respublikamızın inkişafına mane olan mənfi qüsurları kino vasitəsi ilə tənqid edən "Mozalan" satirik kinojurnalı, milli mədəniyyətimizin inkişafında əsas rol oynayır..."

H. Əliyev Azərbaycan KP MK -nın iyul (1969) plenumunda Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi və MK -nın büro üzvü seçiləndən sonra, respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbər olmaqla, dövlətin sosial inkişafı ilə əmək intizamını möhkəmlətmiş və mədəniyyət sahəsində Azərbaycan kino sənətinə yüksək qayğı göstərmişdir.

H. Əliyevin qayğısı nəticəsində onun Azərbaycan respublikasına rəhbərliyi illərində, C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası bir sıra tarixi bədii, elmi-kütləvi, tədris və sənədli kino filmlər çəkib və ekranlara vəsiqə almışdır. Bütün bunlarla yanaşı həmin illərdə "Azərbaycanfilm" kinostudiyasında kinojurnallardan "Sovet Azərbaycanı" və satirik "Mozalan" öz inkişaf mərhələsini tapmışdır.

Respublika rəhbərliyinin yüksək qayğısı nəticəsində, 1981 -ci ilin 4 iyun tarixində səmərəli işinə görə və birinci nömrəsinin ekrana çıxmasının onuncu ildönümü ilə əlaqədar olaraq "Mozalan" satirik kinojurnalı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətini "Fəxri fərmanı" ilə təltif olunmuşdur.

Həmin illərdə mətbuat səhifələrində "Mozalan" satirik kinojurnalı haqqında xoş məqalələr yazılmışdı. 18 iyul 1985 -ci il tarixli "Sovetskaya kultura" jurnalı belə yazmışdır; "... "Mozalan" əmək intizamını pozanlara qarşı mübarizədə bürokratların, rüşvətxorların, ümumiyyətlə öz şəxsi mənafeyini güdənlərə qarşı ifşada mühüm rol oynayır." 29 sentyabr 1985 -ci il tarixli "Bakinski raboçi" qəzeti yazır ki; "Salonda işıqlar sönür və ekranda bizə tanış olan başlıq görünür - balaca "Mozalan" vızıldaya-vızıldaya və amansız oxunu hədəfə tuşlayır." 7 sentyabr 1985 -ci il tarixli "Vışka" qəzetində yazılır ki; "Kino hər şeydən əvvəl incəsənətin bir növüdür. İncəsənət əsərinə isə - o cümlədən satirik əsərə-xüsusi tələblər vardır..."

“Mozalan” satirik kinojurnalının yaranması tarixi inkişaf yolları qıssa da olsa, cəmisi 100 sayda buraxılışı olmuşdur. Həmin kinojurnallardakı səhnəcikləri tanınmış aktyorların ifasında oynanılıb və kinosevərləri sevindirmişdir. Sevindirici hallardan biri də, televiziya proqramlarında tez-tez “mozalanın” nömrələri ekrana yol tapması idi. Belə ki, Azərbaycan kino sənətinin ən çətin janrlarından biri kimi tarixi satirik səhnələr bir daha yada salınır.

“Mozalan” satirik kinojurnalı öz tarixinin inkişaf yolunda aşağıdakı nömrələrlə maraqlı süjetləri xalqa çatdırmışdır. Onlar 1970 -ci ildə birinci nömrəsi, yazıçı - jurnalist Ə. Əylislinin müəllifliyi ilə “Hörmətli alim yoldaşlar !”, M. Əfraylının müəllifliyi ilə “Yüz vədə bir borcu ödəmir” və müəllif A. Mustafazadənin qələmə aldığı “Çaydaşının göz yaşı” (rejissorlar O. Mirqasımov və R. Ocaqov) süjetləri olmuşdu. “Mozalan”ın 100 -cü yubiley nömrəsi, bədii süjetlərdən ibarət bir hissəli satirik komediyadan ibarətdir.

Bu nömrənin müəllifləri E. Borçalı və R. Fətullayev, rejissorları C. Mirzəyev və V. Mustafayevdir. Jurnalı lentə çəkən operatorlar Ə. Ələkbərovla B. Muradov, bəstəkarı E. Sabitoğlu və redaktoru isə B. Məmmədov olmuşdur. Yubiley nömrəsinin süjet oyunçuları N. Zeynalov, Y. Nuriyev, S. Aslan, R. Əzizbəyli, İ. Əhmədov, E. Zeynalov və başqaları olmuşdur. Ümumiyyətlə Azərbaycan kinosu tarixində özünə məxsus yer tutmuş “Mozalan” satirik kinojurnalının baş redaksiya heyəti; Baş redaktor - Ziyafət Əmir oğlu Abbasov, Məsul katib - Tatyana Vladimirovna Makoqonova, Böyük redaktor - Vaqif Hümmət oğlu Məmmədov, Redaktorlar - Ofeliya İlyas qızı Səidova və Tatyana Anatolyevna Bəkirzadə olmuşlar. Səksəninci illərdə “Mozalan” satirik kinojurnalının redaksiyası, Bakı şəhərindəki Tbilisi prospekti, 7 № -li binada yerləşirdi.

Naxçıvan Dövlət Film Fondunda “Mozalan” satirik kinojurnalının ardıcıl nömrələri olmasa da, lakin video surətləri saxlanılır. Yeri gəlmişkən Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi tabeliyindəki Film fondun arxivində 4000-dən artıq müxtəlif ölçülü kino film surətləri saxlanaraq mühafizə olunur ki, onlardan da 300-ü video film surətləridir.

Azərbaycanın sabiq ölkə Prezidenti H. Əliyevin kino sənətinə və kino işçilərinin peşə bayramına xüsusi diqqət və qayğısı nəticəsində, 18 dekabr 2000 -ci il tarixdə “Azərbaycan kinosu gününün təsis edilməsi haqqında” sərəncama imza etmişdir. Beləliklə hər ilin 2 - avqust tarixində “Azərbaycan kinosu günü” kimi təqvimə düşmüşdür ki, bu da nəinki kino işçilərinin habelə bütün kinosevərlərin bayramına çevrilmişdir.

H. Əliyev kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev kino sənətinə diqqət və qayğı göstərir. Ölkə Prezidenti 2007 -ci il fevralın 23 -də imzaladığı "Kino sənətinin inkişafı haqqında" sərəncamı bütün yuxarıda deyilənləri təsdiqləyir.

Bu gün Naxçıvan Muxtar Respublikasında incəsənətin bütün sahələri kimi, kino sənətinə diqqət və qayğı göstərilməkdədir. Belə ki, Muxtar respublikada şəhər və rayon mərkəzlərindəki kinoteatr və kinoklublarında əhaliyə kino xidməti səviyyəsi yüksəldilmişdir. Mədəniyyətimizin inkişafında əsas rol oynayan kino işçilərinin peşə bayramını təbrik edib və onlara uğurlar arzulayaq. Dostlar bayramınız mübarək !

Ədəbiyyat:

1. Səidova O., "Mozalan" - 100 (İzahlı kataloq) Bakı -1985.

2. Kazımzadə A., Azərbaycan kino filmlərin izahlı kataloqu (1898-2002) Bakı -2003.

3. "Şərq qapısı" qəzeti, 2 avqust 2008-ci il.

4. "Ekran - Efir" qəzeti, 6 mart 2009-cu il.

Feyruz Bağırov

Naxçıvan MR Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin şöbə müdiri.

Naxçıvan şəhəri, H. Əliyev prospekti, № 1. tel; 545 02 57.